

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 137 (23.048)

*24 iyul 2018-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## Muxtar respublikaya yeni kənd təsərrüfatı texnikaları gətirilib





1990-cı il iyulun 22-də ümummilli liderimiz Heydər Əliyevin Naxçıvana qayıdışı milli qurtuluşumuzun başlanğıc tarixinə çevrildi. Dahi şəxsiyyətin muxtar respublikada həyata keçirdiyi tədbirlər, qəbul etdiyi qərarlar Azərbaycanın bugünkü inkişafına hesablanmışdır. İlk dəfə Naxçıvandan başlanan aqrar islahatlar ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra genişləndirilərək iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Hazırda ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında aqrar sahədə kompleks islahatlar həyata keçirilir, hər il muxtar respublikaya yeni kənd təsərrüfatı texnikaları alınıb gətirilir.

İyulun 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınıb gətirilmiş yeni kənd təsərrüfatı texnikalarına baxmışdır.

Məlumat verilmişdir ki, bu il muxtar respublikaya 79 yeni texnika və avadanlıq alınıb gətirilmişdir. Alınan texnikalardan 4-ü Almaniya istehsalı olan "Klass Dominator" markalı kombayn, 3-ü İtaliya istehsalı olan "Landini", 8-i "New Holland", 3-ü Çin istehsalı olan "FL" və 4-ü "Belarus" markalı müxtəlif güclü traktorlardır. "Klass Dominator" kombaynları keyfiyyəti və məhsuldarlığı ilə seçilir. Bu kombaynlar uzun müddət istismar olunmaqla yanaşı, həm də muxtar respublika relyefi üçün əlverişlidir. "Landini" markalı traktorlar da yüksək iş əmsalına malikdir.

Tələbata uyğun olaraq gətirilmiş 4 və 5 korpuslu 9 kotan, 2 kipvuran, 40 əl üçün otbiçən, 1 yemdoğrayan, meyvə bağlarının dərmanlanması üçün nəzərdə tutulan 2 çiləyici və digər texnikalar əkin sahələrində, eləcə də təsərrüfat işlərində mütərəqqi aqrotexniki qaydaların tətbiqinə imkan verəcəkdir. Hazırda "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin gübrə anbarlarında da tələbata uyğun ehtiyat yaradılmışdır.

Baxış zamanı qeyd olunmuşdur ki, muxtar respublikada torpaq mülkiyyətçilərinin müasir kənd təsərrüfatı texnikaları ilə təminatı məhsul yığımının vaxtında və itkisiz başa çatdırılmasına imkan verir. Hazırda muxtar respublikada taxıl biçini uğurla davam etdirilir.

Ali Məclisin Sədri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayon bazalarının texnikalarla təminatı, kənd təsərrüfatı texnikalarının satışının davam etdirilməsi, yeni texnikalardan səmərəli istifadə olunması və bununla bağlı məlumatlandırma işlərinin aparılması barədə tapşırıqlar vermişdir.





**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Prokurorluğunda keçirilən kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq hesabat dövründə görülən işlərdən danışıb.***

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq olunmuş və 2007-ci il 23 noyabr tarixli Fərmanı ilə dəyişikliklər edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə və "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi Qaydaları"na müvafiq olaraq 10 noyabr 2017-ci ildə işə qəbulla əlaqədar müsabiqə elan edilib, müsabiqənin nəticəsi olaraq 5 nəfər muxtar respublikanın prokurorluq orqanlarına, 3 nəfəri isə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğuna işə qəbul olunublar.

Naxçıvan Muxtar Respublikasının prokuroru bildirib ki, Azərbaycan Respublikası Baş Prokurorunun "Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında" 2005-ci il 27 iyun tarixli əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair icmal məktubda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunub.

Məruzədə qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələri prokurorluqda təcrübədə olublar.

Diqqətə çatdırılıb ki, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin olunması bundan sonra da prokurorluq orqanları tərəfindən davam etdiriləcək.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində keçirilən kollegiya iclasında ədliyyə naziri, ikinci dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə ilə çıxış edib.***

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 18 may tarixli Fərmanı ilə nazirliyin strukturunda dəyişiklik edilib. Buna uyğun olaraq Nazirlər Kabinetinin 2018-ci il 19 may tarixli Qərarı ilə nazirliyin yerli qurumlarının formalaşdırılması aparılıb, şöbə və bölmələr yaradılıb, dövlət notariat kontorlarının əsasında 6 xüsusi notarius təsis edilib, ekspertlərin sayı artırılıb, şəxsi heyətin rütbə təsnifatı müəyyənləşib.

Qeyd olunub ki, hesabat dövründə Hüquqi Aktların Dövlət Reyestrinə 77 hüquqi akt daxil olub. Onlardan 45-i normativ, 32-si isə qeyri-normativ-hüquqi aktlardır. Yeni hüquqi aktlar hesabına Dövlət Reyestrinin internet saytı daha da zənginləşdirilib və həmin elektron bazaya vətəndaşlar tərəfindən baxış sayı artıb. Nazirliyin rəsmi elektron səhifəsində "Mətbuat xidməti" bölməsi yaradılıb, həmin bölməyə məlumatlar yerləşdirilib.



Diqqətə çatdırılıb ki, məhkəmə qərarlarının vaxtında tam icra olunmasına nəzarət artırılıb, icra və probasiya şöbə və bölmələrinin icraatına 1608 icra sənədi daxil olub, bunlardan 408-i tam icra olunub, 1000-i icraya yönəlib, 40 icra sənədi geri qaytarılıb, 82-si ərazi aidiyyəti üzrə göndərilib. Bundan əlavə, Qeydiyyat və notariat şöbəsi tərəfindən 2018-ci ilin ilk altı ayı ərzində 6 qeyri-kommersiya hüquqi şəxs qeydiyyata alınıb, 1-i isə reyestrdən çıxarılıb. Vətəndaşlıq vəziyyəti aktları ilə bağlı təkrar şəhadətnamələrin verilməsi və sənədlərin leqallaşdırılması ilə bağlı 12 min 776 manat rüsum dövlət büdcəsinə ödənilib.

Sonra məruzə ətrafında müzakirələr aparılıb.

**Xəbərlər şöbəsi**

# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti sessiyasında qarşıya qoyulan vəzifələr Fövqəladə Hallar Nazirliyinin kollegiya iclasında da müzakirə olunub. Fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev iclasda çıxış edərək bildirib ki, 2018-ci ilin 6 ayı ərzində Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin 6 şöbəsində taktiki-xüsusi təlim, Mülki Müdafiə Alayında, Babək və Şahbuz Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrində kompleks yoxlama keçirilib, tabeli bölmələrdə qoşun xidmətinin düzgün təşkili işi yoxlanılıb.

Vurğulanıb ki, nazirliyin balansında olan xilasedici helikopterin əsaslı təmirdən sonra Naxçıvan şəhərinə gətirilməsi təmin edilib və sınaq uçuşu, ayda iki dəfə təlim-məşq uçuşları həyata keçirilir.

Xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin yaz-yay mövsümü istismarı şəraitinə keçidi ilə bağlı işlər vaxtında və keyfiyyətlə təşkil edilib.

Çimərlik mövsümünün başlanması ilə əlaqədar Uzunoba Su Anbarında çimərlik yerinin hazırlanması üzrə verilmiş tapşırıqların icrası təmin olunub.

Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzində struktur qurumların növbətçi qüvvə və vasitələrinin qeydiyyatı aparılıb, "112" qaynar xəttinin fasiləsiz fəaliyyəti təmin olunub.

Nazir bildirib ki, mülki müdafiə və fövqəladə hallardan qorunma sahəsində tədbirlər həyata keçirilərək 141 obyektdə mülki müdafiə işinin təşkili yoxlanılıb. İşçilərin fövqəladə hallarda praktik fəaliyyətə hazırlanması məqsədilə 1 əməli məşğələ, 2 müəssisədə və 1 xəstəxanada taktiki təlim keçirilib.

Şəhər və rayonların səfərbərlik anbarlarında saxlanılan 2-ci qrup fərdi mühafizə vasitələrinin və cihazların saxlanma şəraiti, mülki müdafiə təyinatlı zirzəmilərin vəziyyəti yoxlanılıb, təmir olunan yaşayış binalarının zirzəmilərinin pasportları hazırlanıb.

Qeyd edilib ki, muxtar respublikada tikintisinə yeni başlanılmış 36 obyektin ərazisində mühəndis-geoloji işlər aparılıb, müvafiq protokollar verilib. Obyektlərin layihələndirilməsi mərhələsində 48 obyektin tikintisinin işçi və layihə sənədlərinin ekspertizası aparılıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikada yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 1014 obyektdə əsaslı, 1086 obyektdə nəzəri, 385 obyektdə isə məqsədli yoxlamalar, 298 obyektdə maarifləndirici söhbətlər aparılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin kollegiya iclasını nazir Mirsənani Seyidov açaraq bildirib ki, hesabat dövründə əhaliyə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirilib. Ötən günlərdə Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinə beş ədəd avtobusun gətirilməsi də belə tədbirlərdəndir.

Qeyd edilib ki, bəhs olunan dövrdə daşımalarla məşğul olan hüquqi və fiziki şəxslərin maarifləndirilməsi işləri aparılıb, ayda bir dəfə sərnişin daşımalarını yerinə yetirən sürücülərin iştirakı ilə seminar-müşavirələr təşkil olunub. Cari ilin fevral ayında keçirilən müşavirənin sonunda Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində taksi sürücüsü kimi işə götürülən qadınlara idarə adından məxsusi geyim forması, "Naxtel CDMA" telefonları və vizit kartları təqdim olunub.

Bildirilib ki, Naxçıvanda 496 taksi fəaliyyət göstərir. Muxtar respublika daxilində sərnişindaşıma ilə əlaqədar müəyyən olunmuş qaydalara əməl edilməsi mövzusunda taksi sürücüləri ilə mütəmadi olaraq maarifləndirmə işi aparılır, onların fəaliyyətlərinə daim nəzarət olunur.

Diqqətə çatdırılıb ki, hesabat dövründə qanunsuz sahibkarlıqla məşğul olan avtonəqliyyat vasitəsi sahiblərinin aşkar olunması üçün reydlər keçirilib, intizama tabe olmayan 32 nəfərin siyahısı tədbir görülməsi üçün muxtar respublika Daxili İşlər və Vergilər nazirliklərinə göndərilib.

Nəqliyyat naziri avtovağzallara xidmət səviyyəsinin artırılmasının, ictimai nəqliyyat vasitələrinin sazlığına və hərəkət qrafikinə dəqiq əməl etmələrinə nəzarəti gücləndirməyin əhəmiyyətini vurğulayıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Altı ayın yekunları və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasını nazir Cavid Səfərov açaraq bildirib ki, cari ilin birinci yarısında aktiv məşğulluq tədbirləri davam etdirilib, xidmət mərkəzlərində olan vakant yerlər üzrə 48, keçirilən əmək yarmarkalarında isə 212 olmaqla, ümumilikdə, 1315 nəfər müxtəlif sahələrdə işlə təmin olunub, 108 nəfər peşə kurslarına cəlb edilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı ilin birinci yarısında da uzun müddət ünvanlı dövlət sosial yardımı alan 63 aztəminatlı ailəyə fərdi təsərrüfatların qurmaqlarına yardım edilib.

Vurğulanıb ki, qeyri-formal məşğulluğun qarşısının alınması məqsədilə həyata keçirilən nəzarət tədbirləri nəticəsində 215 sahibkarlıq obyektində 236 halda yeni əmək müqaviləsinin bağlanılmasına, 526 halda isə əməkhaqlarının real göstərilməsinə nail olunub. Bunlarla yanaşı, iş yerlərində əməyin mühafizəsi qaydalarına əməl olunmasına nəzarət davam etdirilib, 48 işçi fərdi və kollektiv mühafizə vasitələri ilə yerində təmin olunub, 20 işçi isə müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb.

Diqqətə çatdırılıb ki, hesabat dövründə 274 nəfərə sosial xidmət göstərilib, Əlillərin Bərpa Mərkəzində 136 şəxsin, Uşaq Bərpa Mərkəzində 150 uşağın müalicəsi təşkil edilib, 187 nəfərə sanatoriya və müalicə pansionatlarına göndəriş verilib, 172 nəfər texniki reabilitasiya vasitələri ilə təmin edilib, 57 nəfərə müalicəsi üçün maddi köməklik olunub, aztəminatlı 6 ailəyə baş çəkilib, 136 nəfərə isə protez-ortopedik xidmət göstərilib.

Kollegiya iclası məruzə ətrafında müzakirə ilə davam edib.

* * *



***Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində keçirilən yığıncaqda müəssisənin direktoru Behruz Əzimov məruzə edib.***

Qeyd edilib ki, hesabat dövründə muxtar respublika əhalisinin, idarə, müəssisə və təşkilatların neft və maye qaz məhsullarına olan tələbatını təmin etmək məqsədilə bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib. Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən ilin sonunadək muxtar respublikaya 40 min ton A-92 markalı benzin, 120 min ton dizel yanacağı, 20 min ton bitum, 11 min ton mazut, 1200 ton müxtəlif yağlar, 5 min ton maye qaz gətirilməsi nəzərdə tutulub. İlin ilk altı ayı ərzində muxtar respublikaya 14 min 32,1 ton A-92 markalı benzin, 66 min 606,3 ton dizel yanacağı, 2 min 370,3 ton bitum, 10 min 982 ton mazut, 177,4 ton müxtəlif növ yağlar, 2 min 746 ton maye qaz gətirilib.

Bildirilib ki, alınan yanacaq muxtar respublikaya İran İslam Respublikasını keçməklə və Bakı-Gürcüstan-Türkiyə marşrutları üzrə daşınır. 2018-ci ilin 6 ayı ərzində Gürcüstan-Türkiyə xətti ilə 12 min 210,9 ton dizel yanacağı və 994,7 ton A-92 markalı avtobenzin, ümumilikdə, 13 min 205,6 ton neft məhsulları daşınıb. İran İslam Respublikasından keçməklə 54 min 562,2 ton dizel yanacağı, 13 min 27,9 ton A-92, 2 min 370,3 ton bitum, 10 min 982 ton mazut, 2 min 746 ton maye qaz, 177,4 ton müxtəlif növ yağlar, ümumilikdə, 83 min 865,8 ton neft məhsulları gətirilib.

Vurğulanıb ki, müəssisə tərəfindən hesabat dövründə ümumi dövriyyəsi 61 milyon 286 min manat olan 96 min 925,5 ton müxtəlif növ neft məhsullarının satışı həyata keçirilib. Bu da 14 min 519,3 ton avtobenzin, 67 min 16,6 ton dizel yanacağı, 2 min 370,3 ton bitum, 10 min 75,5 ton mazut, 2 min 766,5 ton maye qaz, 177,4 ton müxtəlif növ yağlardan ibarətdir. Cari ilin 6 ayı ərzində müəssisə satışdan 630 min manat mənfəət əldə edib.

Diqqətə çatdırılıb ki, boruların, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olması daim nəzarətdə saxlanılır və lazımi tədbirlər görülür. Müəssisəyə yanacaq daşıyan avtomaşınlar tam saz vəziyyətdədir, kifayət qədər yanacaq ehtiyatı yaradılıb. Hazırda müəssisənin anbarlarında 1538 ton A-92 benzini, 2 min 706 ton dizel yanacağı, 851,2 ton mazut, 8,3 ton maye qaz ehtiyatı vardır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında muxtar respublikanın Rabitə və Yeni Texnologiyalar Nazirliyinin də qarşısında müəyyən vəzifələr qoyulub. 2018-ci ilin birinci yarısında nazirliyin gördüyü işlər və qarşıya qoyulan vəzifələrlə bağlı keçirilən kollegiya iclasını nazir Rövşən Məmmədov açaraq bildirib ki, bu dövrdə Şərur rayonunun Ərəbyengicə kəndində 288, Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində 384 nömrəlik NGN tipli yeni avtomat telefon stansiyası qurulub, Culfa rayonunun Dizə kəndində 384 nömrəlik DAEWOO tipli avtomat telefon stansiyası yeni tikilən kənd mərkəzinə köçürülüb. Birinci yarımildə 1136 ədəd yeni telefon nömrəsi istismara verilib. Ordubad şəhərindəki Rabitə Evində Yeni Nəsil telefon sistemi, burada idarə və təşkilatlara aid telekommunikasiya şəbəkə avadanlıqları qurulub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti arasında Şərur, Babək və Şahbuz rayonlarında 15 ədəd yeni nəsil avtomat telefon stansiyasının alınması üçün müqavilə imzalanıb. Kəngərli rayonunda Qıvraq Mərkəzi Karel DS200 Avtomat Telefon Stansiyası daha müasir Karel DS200 L tipli mərkəzi avtomat telefon stansiyası ilə əvəz olunub, proqram versiyası yenilənib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə "Evədək optika" layihəsi çərçivəsində 14 fərdi mənzilə fiber-optik kabel xətti çəkilib və GPON avadanlığı quraşdırılıb.

Şahbuz rayonunun Biçənək kəndində baş verən sel daşqını nəticəsində sıradan çıxan rabitə xətləri bərpa edilib. Bu dövrdə muxtar respublika ərazisində, ümumilikdə, 12 min 515 metr fiber-optik kabel xətti çəkilib, genişzolaqlı ADSL texnologiyası vasitəsilə 3670 yeni abunəçi internetlə təmin olunub.

Qeyd olunub ki, Naxçıvan "İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirləri çərçivəsində *www.imp.nakhchivan.az* domen adlı internet səhifəsi, həmçinin Bəhruz Kəngərli Muzeyinin internet səhifəsi hazırlanıb, *www.behruzkengerli.nakhchivan.az* domen adı ilə qlobal şəbəkədə yerləşdirilib.

"Kanal 35" televiziyasının maddi-texniki bazasının möhkəmləndirilməsi üçün əlavə server, IP televiziya sistemi üçün əlavə modullar alınıb.

Şərur rayonunun Ərəbyengicə kəndində yeni poçt bölməsi yaradılıb, Culfa rayonunun Dizə kəndində poçt bölməsi yeni binaya köçürülüb.

Sonra məruzə ətrafında müzakirələr aparılıb.

* * *



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində keçirilən kollegiya iclasında nazir Natavan Qədimova məruzə ilə çıxış edərək ötən dövr ərzində keçirilən çoxsaylı mədəni-kütləvi tədbirlərdən, qarşıda duran vəzifələrdən danışıb.*

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar Bursa Bölgə Dövlət Simfonik Orkestrinin Naxçıvan Muxtar Respublikasına qastrol səfəri çərçivəsində Heydər Əliyev Sarayında konsert proqramı keçirilib. Həmçinin Naxçıvan Dövlət Filarmoniyasının yeni yaradılan Simfonik Orkestrinin Heydər Əliyev Muzeyinin qarşısında təqdimat konserti təşkil olunub.

Nazir vurğulayıb ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar ötən dövrdə bir sıra işlər görülüb. "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in təntənəli açılış mərasimində Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri və rəqs qrupunun konserti olub.

Bildirilib ki, 2018-ci ilin yanvar-iyun ayları ərzində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" mədəniyyət ilinə həsr olunmuş 1789 tədbir keçirilib.

Diqqətə çatdırılıb ki, bu dövrdə "Şərur" Xalq Yallı Ansamblı Türkiyə Respublikasına səfər edib, Kastamonu şəhərində keçirilən "Kastamonu – 2018 Türk Dünyası Mədəniyyət Paytaxtı" açılış mərasimində, həmçinin Ankara, Kastamonu, İstanbul şəhərlərində təşkil edilmiş Novruz şənliklərində çıxış edib.

Sonra məruzə ətrafında müzakirələr olub.

* * *



Naxçıvan Dövlət Universitetində keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə maddi-texniki bazanın müasirləşdirilərək daha da möhkəmləndirilməsi, tədris prosesinin günün tələbləri səviyyəsində qurulması istiqamətində tədbirlər cari ildə də davam etdirilib. Tibb fakültəsinin yerləşdiyi tədris korpusunun əsaslı surətdə yenidən qurulması işlərinin aparıldığını deyən rektor 2018-ci ildə fakültələr üçün lazımi qurğu və avadanlıqların alındığını, Sosial idarəetmə və hüquq fakültəsində tam təminatlı ekspertiza laboratoriyasının istifadəyə verildiyini bildirib.

Qeyd olunub ki, 2017-2018-ci tədris ilində ali təhsil ocağının 132 magistrant, 1219 bakalavr, 6 rezident bitirib. Universitetdə əlverişli elmi mühitin olduğunu vurğulayan rektor bildirib ki, bu il 14 monoqrafiya, 8 dərslik, 39 dərs vəsaiti, 78 proqram, metodik vəsait, 556-sı ölkəmizdə, 80-i isə xaricdə olmaqla, 636 məqalə nəşr olunub. İmpakt-faktor jurnallarda çıxan məqalələrin sayı isə 8-dir.

Universitet Erasmus+ layihəsi çərçivəsində Erasmus+AESOP, Erasmus+NİZAMİ və Erasmus+Petra layihələrinin üzvüdür və bu layihələr çərçivəsində bir çox yerli və Avropa universitetləri ilə əməkdaşlıq edir. Ali təhsil ocağında Bolonya bəyannaməsinin müddəalarına müvafiq olaraq tələbə və müəllimlərin akademik mobilliyinin əsas sayıldığı və bu istiqamətdə tələbə mübadiləsinin davam etdirildiyi diqqətə çatdırılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

Babək rayonu – 40

# Mədəniyyətin inkişafı yüksək səviyyədədir

***Muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilən genişmiqyaslı tikinti-quruculuq işlərindən Babək rayonunun mədəniyyət müəssisələrinə xeyli pay düşür. Mədəniyyət müəssisələrinin binalarının böyük əksəriyyətinin yenilənməsi onların normal fəaliyyət göstərməsini təmin etməklə yanaşı, rayona xüsusi gözəllik qatıb. Görülən işlər Babək rayonunda mədəniyyətin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin davamlı xarakter almasına öz töhfəsini verir..***





Rayon Mədəniyyət Şöbəsinin müdiri Ceyhun Fərəcov ulu öndərin ***“Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir”*** fikrini xatırladaraq bildirdi ki, görkəmli dövlət xadiminin mədəniyyətimizin inkişafına verdiyi töhfələr milli-mənəvi dəyərlərimizin, ulu keçmişimizin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və bizim bugünkü fəaliyyət proqramımızın əsasını təşkil edir.

Onun sözlərinə görə, şöbənin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələri öz işlərini günün tələbləri səviyyəsində qurmağa çalışır, bölgə sakinlərinin asudə vaxtlarının səmərəli keçirilməsinə töhfələrini verməyə səy göstərir. Rayon sakinləri Tarix-Diyarşünaslıq və Cəlil Məmmədquluzadənin Xatirə muzeylərinin və 17 mədəniyyət evinin, 36 kitabxana filialının, 1 Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, 13 klubun, xalq teatrının xidmətindən istifadə edir. Bütün mədəni-maarif müəssisələrində xalqımızın milli adət-ənənələrinin qorunub saxlanmasına, uşaqların, gənclərin bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə və estetik tərbiyəsinə xüsusi diqqət yetirilir.

Babəkli uşaqların musiqi sahəsində olan istedad və bacarıqlarının üzə çıxarılaraq düzgün istiqamətləndirilməsi üçün Babək qəsəbəsində, Nehrəm, Zeynəddin, Cəhri və Şıxmahmud kəndlərində olmaqla, 5 uşaq musiqi məktəbi fəaliyyət göstərir.

Dövlətin mədəniyyət siyasətinin tərkib hissəsi olan muzeylərə qayğı Babək rayonunda da yüksək səviyyədədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli Sərəncamı muzeylərin fəaliyyətlərinin müasir tələblər səviyyəsində qurulmasına, təbliğat işinin gücləndirilməsinə təkan verib. Belə ki, muzeylərdə açıq dərslər keçilir, ümumtəhsil məktəbləri ilə muzeylər arasında interaktiv əlaqələr yaradılır, mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivlərinin muzeylərə gedişi təmin olunur.



İlin əvvəlindən rayon və kənd mədəniyyət evlərində, klublarda, kitabxanalarda tarixi günlər, bayramlar və yubileylər münasibətilə silsilə tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılıb. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin, ölkəmizin isə Gənclər Paytaxtı elan olunması münasibəti ilə keçirilən tədbirləri xüsusi qeyd etmək lazımdır. Rayonun kitabxana, klub və mədəniyyət evlərində “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” ilə əlaqədar “Gənclər gələcəyimizdir”, “İslam mədəniyyəti inciləri”, “İslam mədəniyyəti və milli dəyərlərimiz”, “Naxçıvan türk-islam mədəniyyəti abidələri” və digər mövzularda tədbirlər, konfranslar, dəyirmi masalar və sərgilər təşkil edilib.

Həmçinin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında mühüm rol oynayan görkəmli sənətkarlara diqqətin ifadəsi kimi təşkil olunan tədbirlər rayon sakinləri tərəfindən rəğbətlə qarşılanır. Ədəbiyyatşünas Firidun bəy Köçərlinin, yazıçı Cəmşid Əmirovun, dramaturq Əliağa Vəliyevin, Xalq yazıçıları Ənvər Məmmədxanlının, Anarın, Xalq şairi Cabir Novruzun, yazıçı-ədəbiyyatşünas Mir Cəlal Paşayevin yubileyləri və xatirə günləri ilə əlaqədar müxtəlif istiqamətli tədbirlər keçirilib, sərgilər təşkil olunub. Bayram günlərində rayon Mədəniyyət Evinin “Zabul” instrumental və “Şəms” muğam ansamblları, bədii özfəaliyyət kollektivləri rayon ərazisindəki hərbi hissələrdə konsert proqramları ilə çıxış ediblər.

Bu gün babəkli mütaliə həvəskarları rayon kitabxanalarındakı 271 min 683 kitabdan istifadə imkanı qazanıblar. Kitabxana-oxucu əlaqələrinin gücləndirilməsi məqsədilə kitabların təbliği və müzakirəsi, yeni kitabların sərgiləri təşkil olunur. Bütün bunlar gənclərin vətənpərvərlik, milli-mənəvi dəyərlərə sədaqət ruhunda formalaşdırılmasında mühüm rol oynayır.

Rayon Mədəniyyət Evində bir sıra dərnəklər yaradılıb. 2009-cu ildə fəaliyyətə başlayan Babək Rayon Xalq Teatrı bu dövrdə C.Məmmədquluzadənin “Kamança”, A.Şaiqin “Tıq-tıq xanım”, Ə.Əsgərovun “Qız atası”, Ə.Mirələmovun “Xəcalət” tamaşalarını teatrsevərlərə təqdim edib.

Milli dəyərlərimizi təbliğ edən, tariximizin yaşadıldığı mədəniyyət müəssisələrindən biri də Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyidir. Ötən əsrin 70-ci illərində yaradılan muzey gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi işində müstəsna rol oynayır. Gənclərin, şagird və müəllimlərin tez-tez Tarix-Diyarşünaslıq Muzeyinin qonağı olması və burada təşkil edilən açıq dərslər yeniyetmə və gənclərdə vətənpərvərlik ruhunun və dövlətçilik hisslərinin yüksəldilməsində, biliklərinin yeni məlumatlarla zənginləşdirilməsində mühüm rol oynayır. Muzey rayonda aparılan arxeoloji tədqiqatlar zamanı ərazidən tapılan maddi-mədəniyyət nümunələri hesabına daha da zənginləşdirilib. Bu muzey babəklilərin və rayon mərkəzinə gələn qonaqların ən çox üz tutduqları ünvanlardan birinə çevrilib.

Rayonun ərazisində 5 dünya, 39 ölkə, 76 yerli əhəmiyyətli abidələr var. Bu tarixi yadigarların qorunması, gələcək nəsillərə ötürülməsi, tədqiqi və təbliği istiqamətində məqsədyönlü işlər həyata keçirilir.

Babəklilər ümummilli lider Heydər Əliyevin ***“Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir. Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir”*** müdrik kəlamını rəhbər tutaraq bölgənin mədəni potensialının yüksəldilməsində və inkişafında əzmkarlıq nümayiş etdirirlər. Rayon Mədəniyyət Şöbəsinin kollektivi bu əhəmiyyətli və məsuliyyətli vəzifəni həyata keçirməklə milli-mədəni dəyərlərimizi öyrənmək, təbliğ etmək və zənginləşdirmək işinə öz töhfəsini verir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Milli-mənəvi dəyərlərimizdən biri: xalçaçılıq

## *Bu sənət bu gün də yaşadılır*

***Xalçaçılıq sənətinin inkişaf etdirilməsi istiqamətində muxtar respublikamızda məqsədyönlü tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” bu işlərin uğurla həyata keçirilməsinə öz töhfəsini verir.***

Qeyd edək ki, Naxçıvan xalçaçılıq məktəbinin bərpa edilməsi, tədqiqi və təbliği üçün 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi yaradılıb. Xalçaçılığın elmi əsaslarla inkişafını diqqətdə saxlayan, evlərdə olan xalça nümunələrinin muzeyə təhvil verilməsi istiqamətində xeyli iş görən muzeyin iş şəraitinin yaxşılaşdırılması məqsədilə 2010-cu ildə bu mədəniyyət müəssisəsi yeni bina ilə təmin olunub.

2013-cü ildə Naxçıvan Dövlət Xalça Muzeyi yenidən qurulub, “Naxçıvan xalçaçıları” kitabının, “Azərbaycan xalçaları: Naxçıvan qrupu” jurnalının, “Naxçıvan xalçaları” sənədli filminin və muzeyin *www.xalca.nakhchivan.az* saytının təqdimatı keçirilib. Bu, milli dəyərlərimizin daşıyıcısı olan xalçaçılığın gələcəyinə ümidləri daha da artırıb...

...Evimizdə rəhmətlik nənəmin 45-50 il bundan əvvəl toxuduğu xalça indi də durur. Çeşniləri ilə gözoxşayan, keyfiyyətini zərrə qədər də itirməyən həmin xalça heç bir təhsil görməyən bir Azərbaycan qadınının təfəkkürünün məhsuludur. Və düşüncəmdə özümü haqlı sayıram ki, belə təfəkkür hər bir Azərbaycan qadınında olub. Xanım-xatın nənələrimiz, ana və bacılarımız öz istedad və bacarıqlarını bu milli sənətin inkişafında yüksək səviyyədə göstəriblər. Onların toxuduqları xalçalar tarixən dünyanın müxtəlif ölkələrində təşkil olunan sərgilərdə nümayiş etdirilib, xalqımıza böyük şöhrət gətirib. İstərdim ki, qədim diyarımızda xalçaçılığın tarixinə qısa səyahət edək.

Aparılan arxeoloji tədqiqatlar nəticəsində xalça toxunuşunda istifadə olunan ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları kimi materialların əldə edilməsi Naxçıvanın Azərbaycanın ən qədim toxuculuq mərkəzlərindən biri olduğunu sübuta yetirir. Orta əsr ərəb müəllifləri də Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumatlar veriblər.

Azərbaycan xalça sənətini öz ənənəvi naxışları və elementləri, özünəməxsus şux rəng çalarları ilə zənginləşdirən Naxçıvan xalçaları bu gün də öz dəyərini saxlamaqdadır. Qeyd edək ki, xalça sənətinin Naxçıvanda geniş yayılmasına xalqımızın məişət və estetik tələbatı rəvac verib. Bu ərazidə istehsal edilən iriölçülü, qalın toxunuşa malik xovlu və keçə, palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalardan evlərdə döşəmələrin örtülməsində, otaqların isidilməsində və bəzədilməsində istifadə edilib.

Naxçıvan xalçaçılıq məktəbi özünəməxsus inkişaf mərhələsi keçib. Bu günümüzə qədər qorunub saxlanılan xalça nümunələri belə deməyə əsas verir ki, bu qədim diyarda xalça toxunuşunda daha çox butalardan, rəmzi çeşnilərdən istifadə edilib. Şaquli istiqamətli zolaqlarla bəzədilmiş xovsuz xalçaların əsas istehsal mərkəzi tarixən Ordubad olub. Əsasən, ipək liflərdən toxunan bu xalçalar ağ, yaşıl, qırmızı, sarı, mavi və sair rəngli zolaqların növbələşməsi ilə bəzədilib, zəriflik baxımından qumaş təsəvvürü yaradıb. Muxtar respublikada toxunan xalça nümunələri həm də mürəkkəb dolama texnikasına, rənginə, bədii xüsusiyyətlərinə görə digər xalçaçılıq məktəblərinin məhsullarından seçilib. Bu barədə düşünərkən qürur hissi keçirməmək mümkün deyil. Belə qiymətli sərvətlərimiz həm də milli dəyərlərimizdir.



Bu məqamda Naxçıvanda xalçaçılıqla məşğul olan yaşlı adamlardan eşitdiyim bir məsələni yada saldım. Tarixən xalça toxunuşunda kollektiv əməyindən istifadə edilib. Kollektiv isə, adətən, bir tayfanın üzvlərindən ibarət olub. Danışırlar ki, hər tayfanın özünəməxsus rəmzlərindən bəzi xalçalarda istifadə edilib. Ancaq həmin xalçalar nə satışa çıxarılıb, nə də evdə ayaq altına salınıb. Belə xalçalar yalnız divarlardan asılıb. Fikrimizcə, geniş izahata ehtiyac yoxdur. Böyük dövlətçilik məktəbi yaratmış Naxçıvanda rəmzlərə belə qiymət vermək təbiidir.

Bu yazını hazırlayarkən yadıma görkəmli yazıçımız Mir Cəlal Paşayevin “Bir gəncin manifesti” əsərindəki “İtə ataram, yada satmaram” fəsli düşdü. Böyük oğlu zindanlara atılan, ehtiyac ucbatından kiçik oğlu uşaq yaşlarında bir tikə çörək qazanmaq üçün özgə qapılara düşən ana öz əlləri ilə toxuduğu, gözünün nurunu, ürəyinin döyüntülərini həkk etdiyi xalçanı satmaq üçün həftəbazarına çıxarır. Xalçanın çox qiymətli olduğunu bir ərəbi ilk baxışda hiss edir. Onu almaq istəyir. Dəfələrlə təkid etsə də, ana razı olmur. Məğrur və vətənpərvər Sona ananın zəngin daxili aləmi bu vaxt üzə çıxır: “Yada satmaram”.

Bitkin bir əsər təsiri bağışlayan bu fəsildə qürurlu Azərbaycan qadınının xalqımızın ən qiymətli milli dəyərlərindən biri olan xalçaya münasibətini görəndə istər-istəməz düşünürsən: budur, dəyərlərimizə ehtiram, budur, ulu keçmişdən bizə yadigar qalan sərvətlərə məhəbbət.

Bu gün xalçaçılığın inkişafı ilə bağlı həyata keçirilən tədbirləri göz önünə gətirsək, milli dəyərlərimizə ehtiram və məhəbbətin yüksək səviyyədə olduğunu görərik.

Şahbuz rayonunda xalçaçılığın yaşadılmasında əməyi olan insanlar, bu bölgədə xalça toxunuşunun xüsusiyyətləri və xalçaçılığın inkişafından da bəhs etmək yerinə düşərdi. Şahbuz xalçalarını bəzəyən əsas elementlərdən şaquli istiqamətli zolaqlar, romblar, qarmaqlı həndəsi elementlər və nəbati ornamentlər, heyvan təsvirləri kimi naxışlar xalqın genetik yaddaşından silinməyən inanc və təsəvvürlərlə bağlıdır. Bu naxışlar sistemi semantika müxtəlifliyindən asılı olmayaraq, bir məkan üzərində real şəkildə ənənəvi üslubda yerləşdirilərək xalçaya ritmik və dinamik ahəngdarlıq verir. Naxçıvan xalçaları içərisində öz spesifik toxunuşu və bədii quruluşu ilə seçilən xovsuz xalça növü olan şəddə süjet semantikası baxımından çox maraqlıdır.

Rayonun Kolanı, Aşağı və Yuxarı Qışlaq, Biçənək, Qızıl Qışlaq və Güney Qışlaq yaşayış məntəqələrində xalça ustalarının yaratdıqları xalça nümunələri ən qiymətli sərvət kimi qorunub saxlanılır. Bir vaxtlar Teymur Rüstəmovun, Zəlbab Mədətovanın, Şükufə Lazımovanın, Aruzə Seyidovanın, Nənəş Həsənovanın və başqalarının toxuduqları xalçalar işlənmə texnikası, ilmə çeşidləri, rəng çalarları ilə seçilir.

Bu günlərdə Aşağı Qışlaq kəndində olduq. Xalçaçılıqla məşğul olan Südabə Məhərrəmova ilə görüşdük. Ömrünün 6-cı onilliyini yaşayan zəhmətkeş qadın bildirdi ki, bu sənəti anasından öyrənib. İndiyədək 20-dən artıq xalça toxuyub. Xalça toxumaq üçün özlərinə məxsus şərait qurublar. Südabə xanım deyir ki, onlara dövlət tərəfindən hana verilib. İplərin rənglənməsində təbii boyalardan istifadə edirlər. Bu boyaları özləri hazırlayırlar. Dəvədabanı, şəkər çuğunduru, səhləb, qırxbuğum, boymadərən bunun üçün ən qiymətli xammaldır. Bundan başqa, torpağı qovurmaqla da ipləri qara rəngdə boyamaq olar.

Südabə Məhərrəmovanın sözlərinə görə, gəlini Mətanət Məhərrəmova kənd mədəniyyət evində xalçaçılıq dərnəyi yaradıb. Burada 5 dərnək üzvünə xovlu və xovsuz xalçaların toxunuşu öyrədilir. Gülay Məhərrəmli Südabə xanımın nəvəsidir. O, bu işi həm evdə, həm də dərnəkdə öyrənir. Deyir ki, özünün çəkdiyi naxışlar əsasında xalça toxumağa hazırlaşır. Bu işdə ona nənəsi və sinif yoldaşı Nisə Rəcəbli də kömək edəcək.

Etdiyimiz söhbətlər qəlbimizi qürur hissi ilə doldurdu və əmin etdi ki, bu gün milli-mənəvi dəyərlərimiz qorunur. Bu işdə məktəblilərin xüsusi fəallıq göstərməsi bizi daha da fərəhləndirdi.

✍ **Muxtar MƏMMƏDOV**

*Jurnalistin qeydləri*

# Kənd turizminin inkişafına əsaslı töhfələr verən füsunkar məkan

## *Gənclərin Ağbulaq İstirahət Mərkəzində mənalı istirahətləri təşkil olunub*





***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun, Həmkarlar İttifaqları Şurasının, Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatının iştirakı ilə Naxçıvan Müəllimlər İnstitutunun 50-dək fəal tələbəsi iyulun 19-dan 22-dək füsunkar təbiətin qoynunda yerləşən Ağbulaq İstirahət Mərkəzində olublar.***

İyulun 19-da “Yay məktəbi”nin iştirakçılarına qoşulub, mən də Ağbulağa yollandım. Yolboyu bu gün gənclərimiz üçün yaradılan hərtərəfli şəraitdən söhbət açıldı, Naxçıvanın dünəni ilə bu gününü müqayisə etdik...

...Vaxt var idi ki, özünün qüdrəti ilə dünyaya səs salan keçmiş Sovetlər İttifaqı zamanında biz uşaq və yeniyetmələr də Şahbuz rayonunun Batabat yaylağında “Qaranquş” adlandırılan pioner düşərgəsinə göndərilirdik. Ancaq hansı bir şəraitdə? Əvvəlcə bizi aparan avtobuslardan başlayaq. “Alabaş” adlandırılan köhnə avtobuslarla yol getmək, sözün həqiqi mənasında, uşaqlar üçün cəhənnəmə səyahət etməyə bərabər idi. Hələ yolları demirəm. Çala-çuxurla dolu olan bu yolda sıradan çıxmış avtobusla hərəkət etmək əsl əzab idi. Batabata gedərkən sovet ideologiyasının “gözbəbəyi” olan “şanlı pionerlər” avtobusun bağlanmayan qapısından içəriyə dolan toz-torpaqdan boğulur, toza qarşı allergiyası olanlar isə daha çox əziyyət çəkirdilər. Hələ düşünəndə ki bu yolu bir də geri qayıdacağıq, onda düşərgəyə getməyimizə peşman olurduq...

Müstəqilliyimizin ilk illərində isə hər hansı bir düşərgədən necə söhbət gedə bilərdi ki, o vaxtlar yeməyə çörək tapa bilmirdik. Bir qarnı ac, bir qarnı tox yatır, qaniçənlərin gözəl yurdumuzu viran qoyacağından, dünyanın ən dəhşətli dərdi olan vətənsizliklə üz-üzə qalacağımızdan ehtiyat edir, kiçikdən böyüyədək hamı döyüşlərə can atır, düşmənə həddini bildirməyə çalışırdı. İşıq, qaz olmadığı üçün yayda istidən, qışda da soyuqdan əziyyət çəkir, dünyadan təcrid edildiyimiz üçün səsimizi heç yerə çatdıra bilmirdik. Yaxşı ki həmin vaxt ulu öndərimiz Heydər Əliyev Naxçıvana gəldi, qədim diyar təhlükələrdən xilas edildi. Yaxşı ki Naxçıvanda müstəqil Azərbaycan dövlətinin təməllərini təşkil edən mühüm addımlar atıldı. Yaxşı ki görkəmli dövlət xadiminin siyasi məktəbinin layiqli məzunları oldu. Yaxşı ki bu gün Qurucu Rəhbərimiz var...

Məhz buna görə də bu gün bütün problemlər öz həllini tapıb. Bununla bərabər muxtar respublikamız başdan-başa yenidən qurulub. Yaradılan yol və turizm infrastrukturu isə bu gözəlliyə gözəllik qatıb. Bu gün kənd turizminin inkişafına əhəmiyyətli töhfələr verən Ağbulaq İstirahət Mərkəzi kimi gözəl məkan da yaradılıb. Ancaq onu da deyim ki, əgər bu yollar abadlaşmasaydı, Ağbulaqda və digər turizm yerlərində cənnət yaradılsaydı da, onun heç bir əhəmiyyəti, faydası olmayacaqdı. Oraya yollanan şagird və tələbələrimiz bu gün ən müasir avtobuslarla, regionun ən abad yolları ilə bu gözəl məkana gəlirlər. Biz gedəndə əzab-əziyyət çəkirdiksə, bugünkü gənclik səyahətdən zövq alır, əylənir, hərdən gözəl şeirlər, mahnılar da səsləndirirdilər. Bizim yoxluqlar, təhlükələr, sıxıntılar içində məhv olan uşaqlığımızın, gəncliyimizin problemləri bugünkü nəsil üçün tamamilə yaddır. Ona görə də bu şəraiti yaradanlara nə qədər minnətdar olsaq, bir o qədər azdır...

Qısa zamanda muxtar respublikanın kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsi olan Ağbulağa çatırıq. Buranın təbiətinin gözəlliyi insanı valeh edir. Kənddə aparılan quruculuq işləri bu yaşayış məntəqəsini daha da gözəlləşdirəcək. Bu ildən etibarən kənddəki bütün evlərin dam örtüyü dəyişdirilir, fasadlar yenilənir, yararsız tikililər sökülür, həyətlərdə abadlıq işləri aparılır və çəpərlənir, lazımi kommunal-məişət şəraiti yaradılır. Yaşayış məntəqəsindən kənarda isə yeni təsərrüfat binaları tikilir. Həyata keçirilən tədbirlər, zəngin təbii turizm ehtiyatları və müasir sosial infrastruktur Ağbulaqda kənd turizminə üstünlük verənlər üçün ideal şərait yaradır...

İstirahət Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Tahir Məmmədli günün nizam qaydası, mərkəzdə keçiriləcək tədbirlər barədə gənclərə məlumat verdi. Mərkəzin bütün heyətinin səfərbər olduğu, lazımi hazırlıqların vaxtında aparıldığı ilk baxışdan hiss olunurdu. Bu, daxilən məni sevindirdi. Çünki bu gün inkişafı zərurətə çevrilən turizm sektorunun gələcəyi insanlara göstərilən xidmətin səviyyəsindən birbaşa asılıdır. Ağbulaq İstirahət Mərkəzində apardığım müşahidələrə əsasən deyə bilərəm ki, burada xidmət mədəniyyəti artıq müasir dövrün tələbləri səviyyəsində formalaşıb. Mərkəzin bütün əməkdaşlarının ilk anlardan son saatadək tələbələrə göstərdikləri diqqət, qayğı, mehriban münasibət bizim milli xüsusiyyətlərimizin nəticəsi olmaqla yanaşı, həm də xidmət səviyyəsinin göstəricisi idi.

Turizm mərkəzi ilə tanışlıqdan sonra tələbələrə verilən naharda təqdim olunan milli mətbəximizin ləziz yeməklərinin dadına-tamına söz ola bilməzdi. Bu məqamda yenə sovet dövründəki pioner düşərgəsində olduğum günləri xatırladım, o vaxtlar dünyanın supergüclərindən birinin məktəblilərə verdiyi yeməklərin çeşidlərini yada saldım. Həmin yeməklərin bu gün təqdim edilən milli yeməklərimizin heç ondabiri qədər də keyfiyyəti, dəyəri yox idi. Kiçik bir müqayisə müstəqilliyimizin, dövlətçiliyimizin əhəmiyyətini ortaya qoyur, dövlətimizin vətəndaşlarına, o cümlədən gənclərə göstərdiyi diqqət və qayğını bir daha göstərir.

Proqrama uyğun olaraq stolüstü idman oyunlarında iştirak edən tələbələr daha sonra oxunması zəruri olan kitablarla bağlı “Nə? Harada? Nə zaman?” intellektual oyunda biliklərini sınadılar. Tələbələrin həm burada, həm də iyulun 21-də keçirilən “Xəmsə” intellektual oyundakı fəallıqları, verilən sualları qısa zamanda doğru cavablandırmaları onlarda mütaliə mədəniyyətinin formalaşdığını göstərirdi.

Maraqlı keçən bir günün ardından axşam “Girdab” bədii filmi nümayiş etdirildi. Ağbulaqda istirahət edən gənclərimizə maarifləndirici, məlumatlandırıcı xarakter daşıyan belə filmlərin, sonrakı iki gündə isə Vətənə, xalqa, dövlətçiliyə bağlılıq aşılayan milli filmlərimizin nümayiş etdirilməsi önəmlidir.

Muxtar respublikanın Turizm Departamentinin və Gənclər Fondunun təşkilatçılığı ilə “Naxçıvan Muxtar Respublikasının turizm potensialının tanıdılmasında gənclərin rolu” mövzusunda iyulun 20-də istirahət mərkəzində keçirilən tədbir də yaddaqalan oldu. Bu barədə qəzetimizdə ətraflı məlumat verdiyimiz üçün mən Ağbulaqda turizmin digər mühüm bir növü barədə fikirlərimi qeyd etmək istərdim. Əvvəlcə onu deyim ki, turizm dedikdə, ilk növbədə, yayın isti günlərində dincəlmək, sərinləmək üçün insanların ölkədaxili və xarici ölkələrdəki istirahət məkanlarına üz tutmaları başa düşülür. Ancaq Ümumdünya Turizm Təşkilatının statistik göstəricilərinə görə, hər il dünya turistlərinin, təxminən, 30-35 faizi qış aylarında istirahət etməyə üstünlük verirlər. Bu, bir tərəfdən insanların məşğulluq sahəsi ilə bağlıdırsa, digər tərəfdən, sözsüz ki, onlarda qış fəslinə olan sevgi, qışın romantik görüntülərinə heyranlıqdır. Yüksəkliklərin təmiz havasından yararlanmaq, ailəliklə xoş istirahət etmək, yaşadıqları həyatın streslərindən kənarlaşmaq, istirahət etdikləri bölgənin mədəniyyətini araşdırmaq istəyi qış turizmini son illər daha çox diqqətçəkən turizm növlərindən birinə çevirib. Bu mövsümi turizmdən danışarkən insanın gözləri önündə, ilk olaraq yüksək dağlıq ərazilərdə, əsasən, xizək idman növü canlanır. Bu mənada, iyulun 17-də Ağbulaq kəndində Xizək Mərkəzinin təməlinin atılması və burada tikinti işlərinə start verilməsi bölgədə qış turizminin gələcək inkişafı baxımından çox böyük önəmə sahibdir.

İyulun 21-də Ağbulaq İstirahət Mərkəzi daha bir maraqlı tədbirə ev sahibliyi etdi. Həmin gün 22 iyul – Milli Mətbuat Günü münasibətilə muxtar respublikamızda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüş oldu, muxtar respublikada keçirilən tədbirlərin işıqlandırılmasında fəal iştirak edən gənc jurnalistlər təltif edildilər. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə “Yay məktəbi”nin fəal gəncləri də iştirak etdilər.

İyulun 22-də növbəti “Yay məktəbi” başa çatdı. Ağbulaqda 4 gün ərzində keçirilən müxtəlif idman və intellektual oyunları, konsert proqramları, tədbirlər tələbələrdə xoş ovqat yaratdı. Gənclərlə söhbət edərkən bir daha bunun şahidi oldum. Naxçıvan Müəllimlər İnstitutunun tələbələri Səbinə Həsənova, Firuzə Əlibəyli, Eltac Qurbanov, Mikayıl Cəfərov bildirdilər ki, Ağbulaq İstirahət Mərkəzindən hər birimiz yüksək əhval-ruhiyyə ilə qayıdırıq. Burada yaxşı istirahətimiz üçün hər cür şərait yaradılmışdı. Bu, Naxçıvan şəhərinin 2018-ci il üçün Gənclər Paytaxtı seçildiyi muxtar respublikamızda gənclərə göstərilən böyük diqqət və qayğının növbəti nümunəsidir. Onlar vurğuladılar ki, bu ilin may ayının 16-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışı oldu. “Yaxşı təhsil almağımız üçün burada hər cür şərait yaradılıb. Gənclərə göstərilən hərtərəfli qayğının müqabilində dərslərimizi daha yaxşı oxumalı, Vətənimizə, dövlətimizə, xalqımıza faydalı olacaq kadr kimi yetişməliyik. Bütün bunlara görə dövlətimizə minnətdarıq”, – tələbələrin ümumi fikri belədir.



...Deyirlər ki, yaxşı istirahət etməyi bacarmayan insan yaxşı oxuya və yaxşı işləyə bilməz. Əgər istirahət etmək üçün vaxt varsa və bunun üçün lazımi şərait yaradılıbsa, onda turizmin fenomen gücündən faydalanmaq, il ərzində yaranmış fiziki və mənəvi yorğunluqdan xilas olmaq mümkündür. 2015-ci il martın 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin icrası qədim diyarımızın sakinlərinin mənalı istirahətinə geniş imkanlar açıb. Həmin müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən ötən illər ərzində aztəminatlı ailələrin övladlarının, sağlamlıq imkanları məhdud uşaqların, qabaqcıl məktəblilərin və tələbələrin Ağbulaq İstirahət Mərkəzinə səyahətlərinin təşkil edilməsi onların mənalı istirahəti üçün gözəl fürsətdir. Bütün bunlar doğma Naxçıvanımızda insan amilinə verilən yüksək qiymətin təzahürüdür.

**Rauf KƏNGƏRLİ**

## *“Kitablar tozlanmasın”* devizi altında *“Kitab qoy, kitab götür”* layihəsi uğurla həyata keçirilir

Gənc nəsildə vətənpərvərlik, tarixə, milli köklərə bağlılığın formalaşdırılması, onların kənar təsirlərdən qorunması üçün dünyagörüşünün zənginləşdirilməsi, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hisslərinin, mütaliə vərdişlərinin aşılanması, intellektual səviyyələrinin yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə “Kitablar tozlanmasın” devizi altında “Kitab qoy, kitab götür” layihəsinə start verilib.

Layihə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki “Zirvə” Kitab Evində həyata keçirilib.

Kitab evində ayrılmış guşədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş oxunması zəruri olan kitablar, həmçinin Azərbaycan və dünya bədii ədəbiyyatı nümunələri yer almışdır.

Mütaliə etmək istəyən hər kəs seçdiyi kitabın məbləğinə uyğun kitab gətirərək onu götürə bilər. Gətirilən kitablar səliqəli, istifadəyə yararlı vəziyyətdə, həmçinin latın qrafikası ilə çap olunmuş əsərlər olmalıdır. “Kitablar tozlanmasın” devizi altında keçirilən layihədə yalnız bədii ədəbiyyatdan istifadə edilməlidir. Hər kəs öz kitabxanasında olan maraqlı kitablardan gənclərin də faydalanmasını istəyirsə, layihəyə dəstək məqsədilə ayrılmış guşəyə kitab hədiyyə edə bilər. Bununla da kitab guşəsi daha da zənginləşər və gənclərin mütaliə vərdişlərinin formalaşmasına hər kəsin töhfəsi olar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 23 iyul 2018-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4348 | 3636 | 11630 | 32,0 |
| 2. | Babək rayonu | 10526 | 9806 | 30849 | 31,5 |
| 3. | Ordubad rayonu | 1678 | 1678 | 4747 | 28,3 |
| 4. | Culfa rayonu | 6116 | 6104 | 17428 | 28,6 |
| 5. | Kəngərli rayonu | 4706 | 4051 | 11525 | 28,4 |
| 6. | Şahbuz rayonu | 1615 | 240 | 602 | 25,1 |
| 7. | Sədərək rayonu | 2466 | 2466 | 7959 | 32,3 |
| 8. | Naxçıvan şəhəri | 1028 | 872 | 2397 | 27,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32483** | **28853** | **87137** | **30,2** |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 529